# İqtisadi islahatlarla bağlı daha bir qanun layihəsi hazırlanıb

Aprelin 7-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

İclasda "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qanun layihəsi (ikinci oxunuş), "Azərbaycan Respublikası hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair" sazişin təsdiq edilməsi haqqında, eləcə də "Sosial sığorta haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə olunub.

Antidempinq haqqında qanun layihəsi ilə bağlı sözügedən komitənin sədri Ziyad Səmədzadə bildirib ki, bu sənəd dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatların dərinləşməsinə yönəlib: "Biz dünyəvi dövlətdə yaşayırıq, amma bununla belə, milli maraqlarımızı, daxili bazarımızı da qorumalıyıq. Odur ki, üzərində növbəti dəfə təkmilləşdirmələr aparılandan sonra bu sənədin bütövlükdə qəbuluna ciddi ehtiyac var". Qeyd olundu ki, qanun olduqca vacibdir və bu sənəd Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədə aparılan iqtisadi islahatların dərinləşməsinə təkan verəcək. Qanun ölkənin və onun istehsalçılarının iqtisadi maraqlarının müdafiəsi məqsədilə yerli istehsal sahəsinə zərər vuran və ya zərərvurma təhlükəsi yaradan dempinqli və ya subsidiyalaşdırılan idxala, həmçinin yerli istehsal sahəsinə ciddi zərər vuran və ya ciddi zərərvurma təhlükəsi yaradan artmış idxala qarşı həyata keçirilən tədbirlərin, o cümlədən antidempinq, kompensasiya və xüsusi rüsumların formalaşdırılması və tətbiqi qaydalarını tənzimləyəcək.

Müzakirə zamanı komitə üzvləri bildirdilər ki, layihədə bir qədər dəyişikliklər edilməlidir. Komitə üzvlərindən Vahid Əhmədov, Əli Məsimli, Şəmsəddin Hacıyev çıxış edərək dedilər ki, layihənin dili sadələşdirilməlidir. Təklif olundu ki, İşçi Qrupu yaradılıb sənədə yenidən baxılsın.

Komitədə "Sosial sığorta haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə ediləndə bildirildi ki, 14-cü maddənin 3-cü hissəsinin ikinci bəndindən sonra aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilib: "Qeyd: Bu maddənin üçüncü hissəsinin ikinci bəndinin məqsədləri üçün əmək qabiliyyətli şəxslər dedikdə, I və II qrup əlillər, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar istisna olmaqla, 15 yaşından "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər başa düşülür".

Bu il fevral ayının 2-də Dubay şəhərində imzalanmış "Azərbaycan Respublikası hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair" saziş isə iki ölkə arasında xarici ticarət sahəsində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur.

İclasın sonunda qanun layihələri parlamentin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***